**A z ə r b a y c a n R e s p u b l i k a s ı**
**Bakı Şəhər Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının**
**S Ə R Ə N C A M I**

**№ 187** **"18" 08 2017-ci il**

**"Məişət tullantılarının vaxtında daşınmasına nəzarət edilməsi üçün komissiyanın tərkibinin təsdiq edilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi-şöbə müdirindən 16.08.2017-ci il tarixli, 11-7/46 saylı məktubla Bakı şəhər rayonlarının müxtəlif küçələrində konteynerlərə yığılmış məişət tullantılarının vaxtında daşınmaması səbəbindən şəhərin ümumi görünüşünə, habelə əhalinin sağlamlığına və ekoloji tarazlığın qorunmasına olduqca mənfi təsir göstərən iri zibilxanaların yaranmasının aradan qaldırılması və məişət tullantılarının vaxtında poliqonlara daşınmasının nəzarətdə saxlanılması, ehtiyac olduqca digər təxirəsalınmaz tədbirlərin görülməsinin təmin edilməsi üçün xüsusi komissiyanın yaradılması rayon icra hakimiyyəti başçılarına tapşırılmışdır.

Binəqədi rayonu ərazisində "Bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında" Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 19.12.2014-cü il tarixli, 263 saylı Sərəncamının icrası ilə əlaqədar görülmüş tədbirlər nəticəsində rayon ərazisində məişət tullantılarının yığışdırılması, müvvəqqəti saxlanılması, daşınması və zərərsizləşdirilməsi sahəsində ciddi dəyişikliklər baş vermiş və bu istiqamətdə görülən işlər davam etdirilir.

Qeyd olunanları və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 6.8-ci maddəsini rəhbər tutaraq

**Q ə r a r a a l ı r a m:**

**1.** Binəqədi rayonu ərazisində iri zibilxanaların yaranmasının aradan qaldırılması və məişət tullantılarının vaxtında poliqonlara daşınmasının nəzarətdə saxlanılması, ehtiyac olduqca digər təxirəsalınmaz tədbirlərin görülməsinin təmin edilməsi məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılsın:

**Komissiyanın sədri:**

İlqar Süleymanov – Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini

**Komissiyanın üzvləri:**

Qüdsi Bayramov – Aparatın Rayon təsərrüfatı şöbəsinin müdiri

| | |
|---|---|
| Ramiz Göyüşov – | Aparatın ərazi idarəetmə və yerli özünüidaretmə orqanları ilə iş şöbəsinin müdiri |
| Azər Məmmədov – | Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi |
| Dilbər Şükürova – | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| Ləman Əliyeva – | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| Mübariz Məmmədov – | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbəsi üzrə nümayəndəsi |
| İbad İbrahimov – | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbəsi üzrə nümayəndəsi |
| Elxan Əliyev – | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbəsi üzrə nümayəndəsi |
| Əlikram Haqverdiyev – | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbəsi üzrə nümayəndəsi |
| Əlipaşa Xankişiyev – | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 28 May qəsəbəsi üzrə nümayəndəsi |
| Sitarə Cabbarlı – | Binəqədi rayon Bələdiyyəsinin sədri |
| Hümbət Hüseynov – | M.Ə.Rəsulzadə Bələdiyyəsinin sədri |
| Hikmət Quliyev – | Biləcəri Bələdiyyəsinin sədri |
| Aytac Əliyeva – | Binəqədi qəsəbə Bələdiyyəsinin sədri |
| Anar Abbasov – | Xocəsən qəsəbə Bələdiyyəsinin sədri |
| Fədai Hacıyev – | Binəqədi rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru |
| Oktay Süleymanlı – | Binəqədi Rayon Polis İdaərsinin müavini |

**2. Komissiyaya tapşırılsın:**

- Rayonun qəsəbə və mikrorayonlarında iri zibilxanaların yaranmasının qarşısının alınması və məişət tullantılarının vaxtında paliqonlara daşınmasının nəzarətdə saxlanılmasını qısa müddətdə təmin etsinlər;

- Məişət tullantılarının ətraf ərazilərə atılmasının qarşısının alınması ilə əlaqədar əhali arasında maarifləndirmə işlərini təşkil etsinlər;

- Ehtiyac olduqca təmizliyin saxlanılması ilə əlaqədar digər təxirəsalınmaz tədbirlərin görülməsini təmin etsinlər.

**3.** Komissiyanın sədri komissiyanın fəaliyyəti ilə bağlı görülmüş işlər barədə hər ay Rayon İcra Hakimiyyətinin başçısına məlumat verilməsini təmin etsin.

**4.** Binəqədi Rayon Polis İdarəsinə tövsiyə edilsin ki, ərazilərə qanunsuz məişət tullantıları daşıyan maşın-mexanizmlərlə bağlı qanunvericilikdə nəzərdə tutulmuş qaydada ciddi tədbilər görsün və ərazi idarəetmə və yerli özünüidarəetmə orqanlarına zəruri köməkliklər göstərilməsini təmin etsin.

**5.** Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanova həvalə olunsun ki, bu Sərəncamın aidiyyəti qurumlara göndərilməsini təmin etsin.

**6.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**

**Əsli ilə düzdür**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**Elnur İmanov**
**№ 174**